# Milli Məclisin komitə iclaslarında





Sentyabrın 11-də Milli Məclisin Elm və təhsil komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə komitənin sədri Anar İsgəndərov gündəliyə 3 məsələnin daxil edildiyini bildirib.

Müzakirəyə əvvəlcə Milli Məclisin Elm və təhsil komitəsinin 2025-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində fəaliyyəti barədə hesabatı təqdim olunub. Ötən dövrdə komitədə görülən işlər barədə məlumat verən Anar İsgəndərov qeyd edib ki, komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan müraciətlərlə bağlı müvafiq tədbirlər görülüb.

Sonra komitə sədri Elm və təhsil komitəsinin 2025-ci il payız sessiyası üçün iş planı haqqında məlumat verib. Bildirilib ki, qarşıdakı sessiyada komitəyə təqdim olunmuş qanun layihələrinə baxılması, müvafiq mövzular üzrə dinləmələrin təşkil olunması və digər məsələlər nəzərdə tutulub.

Gündəliyin üçüncü məsələsi olan "Ümumi təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda müzakirəyə təqdim edən Anar İsgəndərov dəyişikliyin əhəmiyyətini qeyd edib. O vurğulayıb ki, dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi üçün keçirilən müsabiqədə ilk dəfə iştirak etmək ödənişsiz olaraq qalır. Bundan başqa əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, şəhid ailəsinin üzvləri və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər bütün hallarda bu müsabiqədə ödənişsiz olaraq iştirak edirlər.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqə yolu ilə həyata keçirilir. Lakin hər il müsabiqə üçün qeydiyyatdan keçən şəxslərin əhəmiyyətli bir hissəsi imtahanda iştirakdan imtina edir. Bu da izafi xərclərin çəkilməsinə səbəb olur. Ona görə də layihədə müəllimlərin işə qəbulunda iştirakçıların məsuliyyətinin artırılması, dövlət büdcəsi vəsaitlərinin səmərəli istifadəsi məqsədilə müsabiqədə təkrar iştirakın ödənişli əsaslarla həyata keçirilməsi təklif edilib.

İclasda komitə sədrinin müavini Fariz İsmayılzadə, üzvləri Ceyhun Məmmədov, Elçin Mirzəbəyli, Fatma Yıldırım, Rəşad Mahmudov, Elnarə Akimova, Sevinc Fətəliyeva, Eldar Quliyev, Mehriban Vəliyeva, Pərvin Kərimzadə, Əziz Ələkbərov, Vasif Qafarov və Aparatın Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev gündəlikdəki məsələlər barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini diqqətə çatdırıblar.

İclasda komitədə ötən sessiyada görülmüş işlər məqbul hesab edilib, komitənin qarşıdakı payız sessiyası üçün iş planı təsdiqlənib və gündəlikdəki qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Sentyabrın 11-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin 2025-ci ilin payız sessiyasında ilk iclası keçirilib.

İclası açan komitə sədri Fazil Mustafa öncə İctimai birliklər və dini qurumlar komitəsində 2025-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə məlumat verib. Bildirilib ki, ötən sessiya müddətində komitədə 6 iclas keçirilib, ümumilikdə 12 məsələyə baxılıb. Komitə sədri ötən sessiyada "Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu" mövzusunda ictimai dinləmənin keçirildiyini, komitə üzvlərinin müxtəlif tədbirlərdə, vətəndaş qəbullarında fəal iştirak etdiklərini bildirib.

Daha sonra Fazil Mustafa İctimai birliklər və dini qurumlar komitəsinin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirilib ki, növbəti sessiya dövründə qanunvericilik təşəbbüsü subyektləri tərəfindən təqdim olunan və komitənin fəaliyyət sahəsinə aid olan qanun layihələri müzakirə ediləcək, dinləmələr təşkil olunacaq, parlamentin müvafiq komitələrinin iştirakı ilə işğaldan azad edilmiş ərazilərdəki dini abidələrin bərpası zamanı üzə çıxan problemlər və həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması məsələləri ictimai müzakirəyə çıxarılacaq.

Müzakirələr zamanı komitənin üzvləri Ceyhun Məmmədov, Tənzilə Rüstəmxanlı, Azər Allahverənov, Səbinə Salmanova, Elşad Musayev və Cavanşir Paşazadə çıxış edərək məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

İclasın sonunda ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub, 2025-ci ilin payız sessiyası üçün iş planı təsdiq edilib.

***"Azərbaycan"***